Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi
Təhsilin İnkişafı
Fondu

# Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Təhsilin İnkişafı Fondunun təsis olunması

- Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Təhsilin İnkişafı Fondunun yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 14 iyul 2021

- Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Təhsilin İnkişafı Fondu publik hüquqi şəxsinin yaradılması haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 68 nömrəli Qərarı, 1 mart 2022

- Azərbaycan Respublikası Təhsil Nazirinin Təhsilin İnkişafı Fondu İdarə Heyətinin sədrinin təyin olunması haqqında Əmri, 17 mart 2022

- Təhsilin İnkişafı Fondu publik hüquqi şəxsinin Dövlət Vergi Xidməti tərəfindən dövlət qeydiyyata alınması, 6 aprel 2022

- Azərbaycan Respublikası Təhsil Nazirinin Təhsilin İnkişafı Fondunun təşkilati strukturu, işçilərin say həddi və ştat cədvəli təsdiq olunması haqqında Əmri, 18 aprel 2022

# Təhsilin İnkişafı Fondunun strukturu və idarəetmə

- TİF təşkilati strukturu, işçilərin say həddi (16 ştat vahidi) və ştat cədvəli təsdiq olunub
- *Rəhbərlik:* Sədr və sədr müavini
- *Layihələrin idarə olunması və biznesin inkişafı şöbəsi:* Şöbə müdiri, layihələr üzrə mütəxəssis və biznesin inkişafı üzrə mütəxəssis
- *İnzibati idarəetmə şöbəsi:* Şöbə müdiri, insan resursları üzrə mütəxəssis, hüquqşünas, baş mühasib, İT üzrə mütəxəssis, sosial media mütəxəssisi, assistent, sürücü və xadimə
- Fondun idarəetmə orqanı ümumi rəhbərliyi və nəzarəti həyata keçirən *İdarə Heyətidir.*
- *İdarə Heyəti* sədr və onun müavini daxil olmaqla 3 üzvdən ibarətdir.

# Təhsilin İnkişafı Fondunun məqsədləri

- Azərbaycan Respublikasında təhsil sisteminin inkişafına yönəlmiş proqram və layihələrin maliyyələşdirilməsi

- Dövlət təhsil müəssisələrinin maddi-texniki bazasının müasir tələblərə uyğunlaşdırılmasına yardım göstərilməsi

***Qeyd:***

*TİF strateji plan və məqsədlərinin müəyyən edilməsi üçün Təhsil nazirliyi, tərəfdaş qurumlar və təhsil müəssisələrinin nümayəndələri ilə görüşlər və müzakirələr həyata keçirilir.*

# «Təhsilin İnkişafı» Fondunun fəaliyyət istiqamətləri

1. Təhsilinin inkişafı ilə bağlı dövlət siyasətinin formalaşdırılmasında, **təhsil və iqtisadiyyatın inteqrasiyasının** gücləndirilməsində iştirak etmək

2. Təhsil sisteminin inkişafına yönəlmiş **ictimai və sosial əhəmiyyətli**, o cümlədən beynəlxalq səviyyədə həyata keçirilən **proqram və layihələri** maliyyələşdirmək

3. Dövlət təhsil müəssisələrinin maddi-texniki bazasının **müasir tələblərə uyğunlaşdırılmasına** yardım etmək

4. Təhsilin inkişafını təşviq edən **mexanizmlərin hazırlanmasında və həyata keçirilməsində** iştirak etmək

5. Nazirliyin işçilərinin **sosial müdafiəsinin gücləndirilməsinə və maddi təminatının yaxşılaşdırılmasına** yardım etmək

# Təhsilin İnkişafı Fondunun gəlir mənbələri

- Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyindəki təhsil müəssisələrinin büdcədənkənar vəsaitindən, habelə ödənişli təhsil xidmətləri göstərilməsindən əldə etdikləri gəlirlərdən ayırmalar

- İanələr, qrantlar və cəlb edilən investisiyalar

- Fondun fəaliyyətindən, o cümlədən sahibkarlıq fəaliyətindən əldə olunmuş gəlir

- Qanunla qadağan olunmayan digər mənbələr

# İanələr

Təhsilin İnkişafı Fondu ölkə ərazisində və ondan kənarda yaşayan fiziki və hüquqi şəxslərə Fondun saytından istifadə etməklə təhsil üçün ianələrin edilməsi imkanı yaradacaqdır. İanələr aşağıdakı formada oluna bilər:

1) **Təhsilin İnkişafı Fonduna**

2) **Hər hansı konkret tematik layihə** *(məsələn, inklüziv təhsil, qızların təhsili, STEAM, infrastruktur və s.)*

3) **Öz məktəbinə ianə et**

İanələri edən fiziki və hüquqi şəxslər açıq və ya anonim şəkildə qala bilər. 1000 manat və aşağı məbləğdə ianə edənlərə elektron sertifikat, 1000 manat və daha artıq məbləğdə ianə edənlərə isə TİF ofisinə dəvət olunmaqla kağız sertifikat təqdim edilə bilər.

Qeyri-maddi vəsaitlə ianə edən fiziki və ya hüquqi şəxslərə tərəfdaş sertifikatları təqdim edilə bilər.

# TİF-ə təqdim olunan layihələr

**Dövlət-özəl tərəfdaşlığı çərçivəsində aşağıdakı layihələr təqdim edilmişdir:**

- Süni İntellekt və Mühəndislik Akademiyası
- Regional Elm Mərkəzlərinin qurulması
- Təcrübə və təqaüd proqramları
- İnklüziv təhsil ixtisaslı tələbələr üçün tədris-təcrübə laboratoriyalarının yaradılması
- Təhsil müəssisələrində avadanlıqlarının (vending machine) qurulması
- Tələbə yataqxanalarının təmir edilməsi və birgə istifadəsi
- Təhsil müəssisələrinin aktivlərindən birgə istifadə (ofis və kovorkinq mərkəzlərinin yaradılması, start up lar üçün Vadilərin qurulması və idarə edilməsi və sair.

**«Təhsilimizin dayanıqlı inkişafına birlikdə nail olaq!»**